# MƏRMƏRDƏN NİGARAN BAXAN NURLANIM

Vətən Müharibəsində qəhrəmancasına şəhid olmuş, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunmuş, Astara rayonunun Təngərüd kəndində dünyaya göz açmış, tibb xidməti baş leytenantı Nurlan Əhliman oğlu Fərəməzovun əziz xatirəsinə



***Hamının yarasın saran Nurlanım,***  
***Biz sənin yaranı sara bilmədik.***  
***Hamının qeydinə qalan Nurlanım,***  
***Biz sənin qeydinə qala bilmədik.***

***Yoxluğun yandırıb-yaxdı hamını,***  
***Üzündən nur yağan nurlu qardaşım.***  
***De, kimə tapşırdın yazıq ananı,***  
***Sanki dil açıbdır sənin başdaşın.***

***Nakam arzuların qaldı yollarda,***  
***Vətən yollarını təmizləməkçün.***  
***Özünü oda atdın, yaralıları***  
***Sağaldıb könlünü əzizləməkçün.***

***Sənə yer ağladı, göylər ağladı,***  
***Ay həkim qardaşım, şəhid qardaşım.***  
***Ananın naləsi ürək dağladı,***  
***Cənnət səmasına şahid qardaşım.***

***O ağ xalatının gözləri yaşlı,***  
***O əsgər paltarın gözləyir səni.***  
***Bacının üzündə donub gülüşü,***  
***Hamı səsləyir səni, özləyir səni.***

***Evin bircə oğlu, yanan çırağı,***  
***Sönsən də qəlblərdə daim yanarsan,***  
***Bir ağ göyərçinə dönüb gizlicə,***  
***Tənha pəncərənə xəlvət qonarsan.***

***Ən uca zirvədən baxan Nurlanım,***  
***Sən and yerimizsən, məbədimizsən.***  
***Mərmərdən nigaran baxan Nurlanım,***  
***Sən bizim yaşayan əbədimizsən...***

**Günel Rasibqızı,**  
**Astara rayonunun Siyakü kənd tam orta məktəbinin müəllimi**

Ədalət.- 2021.- 20 mart.- S.12.